

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 173 (23.335)

*17 sentyabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.

Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verilərək bildirilib ki, məktəbin yeni tədris kompleksində ən müasir şərait yaradılıb. Burada şagirdlər müxtəlif laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra, idman zalında idmanın müxtəlif növləri ilə məşğul ola biləcəklər.

Bu təhsil ocağının binası 1932-ci ildə tikilib. O zaman məktəb 400 şagird yerlik olub. Hazırda isə burada yeni istifadəyə verilən tədris kompleksi ilə birlikdə, ümumilikdə, 1944 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 138 müəllim heyəti məşğul olur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni tədris kompleksinin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif otaqlarında və yeməkxanada yaradılan şəraitlə tanış olublar, müəllimlər və şagirdlərlə söhbət ediblər, onlara yeni tədris ilində uğurlar arzulayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.




# Muxtar respublikada Bilik Günü qeyd olunub

## Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilib





Sentyabrın 16-da muxtar respublikada Bilik Günü Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin yeni binasının istifadəyə verilməsi ilə qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın ali, orta ixtisas, ümumtəhsil məktəblərinin tələbə və şagirdlərini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri Bilik Günü münasibətilə təbrik edərək demişdir: Təhsil hər bir ölkə üçün strateji sahədir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz!"*** Elm və təhsil hər bir ölkənin inkişafının əsasını təşkil edir. Dünya dövlətlərinin inkişafla bağlı müasir çağırışları, ilk növbədə, təhsillə, cəmiyyətin intellektual inkişaf səviyyəsi ilə əlaqəlidir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan etmişdir.

Qeyd olunmuşdur ki, ölkəmizdə təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı və bu sahədə həyata keçirilən islahatlar innovativ inkişafa və güclü iqtisadi potensiala əsaslanır. İqtisadiyyatın dinamik inkişaf səviyyəsi muxtar respublikada genişmiqyaslı layihələri reallaşdırmağa, o cümlədən təhsil infrastrukturunu yeniləşdirməyə tam imkan verir. Təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşmasını şərtləndirən ən mühüm amillər təhsil prosesinin inkişaf etdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsi, bu yolla təhsil ocaqlarında kontingent sıxlığının aradan qaldırılmasıdır. Son illərdə muxtar respublikada tikilən və yenidən qurulan 200-dən çox təhsil müəssisəsi ən müasir standartlar səviyyəsində şagirdlərin, müəllimlərin istifadəsindədir. Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda yüksək intellektli kadr potensialının hazırlanmasına şərait yaradır. Bu səbəbdən ötən tədris ilində muxtar respublika üzrə buraxılış imtahanlarının nəticələri Azərbaycan üzrə orta statistik göstəricidən yüksək olmuşdur.

Ali Məclisin Sədri bu işdə əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Bu il Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini 2917 məzun bitirmiş, məktəblərə 5272 şagird qəbul edilmişdir. Hər bir məktəbin təhsilin inkişafı və kadr hazırlığı işində öz töhfəsi və əməyi vardır. 5 nömrəli tam orta məktəb də bu inkişafın bir hissəsi olmaqla yüksək təhsil nəticələri ilə fərqlənir. Belə ki, 2018-2019-cu tədris ilində məktəbin 64 məzunundan 50-si ali təhsil müəssisələrinə qəbul olmuş, onlardan 12-si 500-700 intervalında bal toplamışdır.

"Muxtar respublikamızda müəllimlərin fəaliyyətinin stimullaşdırılması üçün onların əməyinin qiymətləndirilməsi, sosial həyat şəraitinin yaxşılaşdırılması təhsilin inkişafına kompleks yanaşmanın təzahürüdür", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin ictimai-siyasi həyatında fəal iştirakını təmin edir. Gənclərə verilən dəstək davamlı və dayanıqlı inkişafa və gələcəyə qoyulan sərmayədir. Zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malik muxtar respublikamızda bu ənənələr yeni dövrün tələbləri nəzərə alınmaqla inkişaf etdirilməlidir. Yaradılmış şərait və dövlət qayğısı bilikli, vətənpərvər, milli düşüncəyə malik gənclərin hazırlanmasına xidmət etməlidir.



Ali Məclisin Sədri demişdir: Təhsildə informasiya texnologiyalarının tətbiqi genişləndirilməli, tədrisin distant istifadə imkanları artırılmalı, elektron dərsliklərin, təhsil portallarının yaradılması işi diqqətdə saxlanılmalıdır. Təhsilin əsas məqsədi gənclərə düzgün qərarlar qəbul etmək sənətini öyrətməkdir. Düzgün qərarlar qəbul etməklə gənclər şəxsiyyətə, ölkələr isə qüdrətli dövlətə çevrilir. Bilik Günündə Naxçıvan şəhərində yeni məktəb binasının istifadəyə verilməsi və yaradılan şərait təhsil sahəsində həyata keçirilən tədbirlərin davamlı olmasının və inkişafın göstəricisidir.

Ali Məclisin Sədri yeni tədris ilində müəllim və şagirdlərə uğurlar arzulamış, muxtar respublikanın bütün şagird, kursant və tələbələrini, müəllim və valideynləri yeni dərs ili münasibətilə bir daha təbrik etmişdir.

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin direktoru Esmira Həsənova çıxış edərək demişdir ki, muxtar respublikada şagirdlər hərtərəfli təhsil alır, milli dəyərlərimizə, adət-ənənələrimizə sahib, yüksək biliyə malik vətənpərvər gənclər kimi yetişirlər. Bu gün Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb də müasir maddi-texniki bazaya malik məktəblər sırasına qoşulur. Yaradılan müasir tədris şəraiti təhsilin yüksək səviyyədə təşkilinə geniş imkanlar açır. Ötən 5 ildə məktəbi bitirən məzunlardan 207-si, yaxud 83 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş, onlardan 53-ü 500-700 arası bal toplamışdır. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin kollektivinin əməyi də daim yüksək qiymətləndirilmiş, müəllimlərindən 2-si "Tərəqqi" medalına, 1-i isə "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adına layiq görülmüşdür. Həmçinin sentyabrın 1-dən müəllimlərin aylıq vəzifə maaşlarının əlavə olaraq orta hesabla 20 faiz artırılması təhsil işçilərini fərəhləndirir

*Ardı 2-ci səhifədə*





və daha əzmlə, məsuliyyətlə çalışmağa sövq edir. Esmira Həsənova təhsilə göstərilən diqqətə görə muxtar respublika müəllimləri adından minnətdarlıq etmişdir.

Məktəbin yeddinci sinif şagirdi Zümrüd Zeynallı çıxış edərək demişdir ki, bu gün şagirdlər ikiqat sevinc yaşayır. Çünki həm Bilik Gününü qeyd edirik, həm də məktəb binamız yenidən tikilərək biz şagirdlərə hədiyyə olunur. Yeni məktəbdə zəngin kitabxana, idman zalı, kompüter otaqları, elektron lövhəli siniflər, laboratoriyaların olması bilikli və vətənpərvər gənclər kimi formalaşmağımıza təsir göstərəcəkdir. Zümrüd Zeynallı müasir təhsil şəraitinə görə şagirdlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, daha yaxşı təhsil alaraq ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq vətəndaş kimi yetişəcəklərini bildirmişdir.



Sonra Zümrüd Zeynallı ulu öndərə həsr olunmuş şeiri bədii qiraət etmişdir:

Sən yurduma ən ağır,
çətin zamanda gəldin,
Xalqın oda-alova
düşüb yananda gəldin,
Ümidsizlik zəlitək
qanlar soranda gəldin,
Ulu Öndərim mənim,
Dədə Heydərim mənim!

Parçaladın, dağıtdın
qatı zülməti, sağ ol!
Oyandırdın damarda
yatan qeyrəti, sağ ol!
İşıqlığa çıxartdın
xalqı, milləti, sağ ol!
Ulu Öndərim mənim,
Dədə Heydərim mənim!

Anam Azərbaycanla
qoşadır adın sənin
Günəş kimi nurlusan –
sönməzdir odun sənin.
Vətən olub həmişə
qolun-qanadın sənin,
Ulu Öndərim mənim,
Dədə Heydərim mənim!

Arzumuz-əməlimiz,
diləyimizsən bizim!
Hər an qəlbimizdəsən –
gərəyimizsən bizim!
Sabah eşqiylə coşan
ürəyimizsən bizim,
Ulu Öndərim mənim,
Dədə Heydərim mənim!

Hünərinlə dağıldı
yolumuzdan çən-duman,
Ağ günlərin əlini
sıxıbdı Azərbaycan,
Gözəl, xoşbəxt günlərə
çıxıbdı Azərbaycan,
Ulu Öndərim mənim,
Dədə Heydərim mənim!

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir. Bildirilmişdir ki, 4 mərtəbəli məktəb binası 1140 şagird yerlikdir. Təhsil ocağında 3-ü elektron lövhəli olmaqla, 60 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, 2 şahmat otağı, 2 müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Məktəbdə 952 şagirdin təhsili ilə 80 müəllim məşğul olur. Bu tədris ilində məktəbin birinci sinfinə 120 şagird qəbul olunmuşdur.

Fizika, kimya və biologiya laboratoriyalarında dərs proqramına uyğun təcrübə avadanlıqları qoyulmuşdur. Eyni zamanda fizika və biologiya kabinələri elektron lövhə ilə təmin edilmişdir. Məktəbin şagirdləri dəqiq fənlərə üstünlük verirlər. Son 5 ildə məktəbin məzunlarından 10-u Mühəndislik ixtisasını seçmişdir. Eyni zamanda məktəbin şagirdlərindən Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olanlar da vardır.



Ali Məclisin Sədri dəqiq elmlərin tədrisində elektron dərsliklərdən istifadənin əhəmiyyətini vurğulamış, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslərin keçilməsi, şagirdlərə muxtar respublikanın zəngin fauna və florası haqqında məlumatların verilməsi barədə tapşırıqlar vermişdir.

Məktəbin şahmat sinfində lazımı avadanlıqlar qoyulmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən nəşr olunmuş “Pillə-pillə” kitabından bu ildən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində tədris vəsaiti kimi istifadə olunacaqdır.

Məktəbə optik xətt çəkilmiş və sürətli internetə çıxış təmin edilmişdir. Kompüter otaqlarındakı 63 kompüterin hər biri və 5 elektron lövhə internetə qoşulmuş, zəngin elektron dərslik bazası yaradılmışdır. Bu da tədrisdə yeni texnologiyaların imkanlarından geniş istifadə olunmasına, ən əsası isə dərslərin daha yaxşı qavranılmasına imkan verəcəkdir.

Elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında keçilən “Ümummilli lider Heydər Əliyevin təhsil strategiyası” interaktiv dərsi izlənilmiş, 4 mindən artıq şagirdə mövzu ilə bağlı ətraflı məlumat verilmişdir.

Ali Məclisin Sədri interaktiv dərslərlə yanaşı, həm də şagirdlərin muzeylərə ekskursiyalarının təşkili və açıq dərslərin keçilməsi barədə tapşırıqlar vermişdir.



Məktəbin kitabxanasında 9512 latın qrafikalı dərslik və 2273 bədii ədəbiyyat olmaqla, 11 min 785 kitab vardır. Kitabxanada ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, eləcə də oxunması zəruri olan kitablardan və yubileyləri qeyd olunan ədiblərin əsərlərindən ibarət guşələr yaradılmışdır. Müasir idman zalında, eləcə də hərbi kabinədə də tədris üçün lazımi şərait vardır.

Məktəbin hərbi rəhbəri Bəxtiyar Həsənov muxtar respublikada gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin təşkilinə və hərbi rəhbərlərin hazırlığına xüsusi diqqət yetirildiyini bildirmiş, göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri çağırışaqədərki hərbi hazırlıq və fiziki tərbiyə dərslərinə diqqətin artırılması, məktəbdə müxtəlif idman yarışlarının keçirilməsi barədə tapşırıqlar vermişdir.

Sonra məktəbin müəllimləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri demişdir: Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb nailiyyətləri ilə seçilən qabaqcıl təhsil ocaqlarındandır. Ali məktəblərə qəbulda muxtar respublikanın orta göstəricisi ölkə üzrə orta göstəricidən, 5 nömrəli məktəbin göstəriciləri də muxtar respublikanın orta göstəricisindən yüksəkdir. Bütün bunlar ölkəmizdə təhsilin inkişafı üçün yaradılan şəraitin, müəllim əməyinə verilən qiymətin, eyni zamanda müəllim tələbkarlığının və şagird çalışqanlığının nəticəsidir. Təhsil sahəsində qazanılan uğurlar ölkəmizin gələcəyinə xidmət edir. Dövlətimiz tərəfindən müəllim və şagirdlər üçün hər cür şərait yaradılıb. Məktəb müasir tədrisin tələbləri səviyyəsindədir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edilməli, şagirdlər çalışqan, müəllimlər isə tələbkar olmalı, dərslər qavrama yolu ilə öyrədilməli, nailiyyətlər daha da artırılmalıdır. Hər bir müəllimin əsas vəzifəsi vətənpərvər və təhsilli gənclər hazırlamaqdan ibarətdir. Çünki sağlam gənclik ölkəmizin gələcəyidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür etmişdir.

Məktəbin müəllimi Samirə Məmmədova demişdir: Məktəbimizdə yaradılan şərait şagirdlərin daha yaxşı təhsil almasına böyük imkanlar açmaqla yanaşı, həm də müəllimləri daha yaxşı işləməyə ruhlandırır. Bu gün muxtar respublikada təhsilə böyük qayğı göstərilir. Gənclərin işlə təminatı diqqətdə saxlanılır. Gənc müəllimlərin müsabiqə yolu ilə məktəblərə qəbul olunması da bu sahədə görülən işlərin davamıdır. Samirə Məmmədova muxtar respublika müəllimləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, gənc nəslin təlim-tərbiyəsində səylə çalışacaqlarını bildirmişdir.

Məktəb binasının həyəti də abadlaşdırılmış, yaşıllıqlar salınmış, açıq idman qurğuları quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində sentyabr ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilmişdir. Belə ki, 2019-cu il 3 sentyabr tarixli 112 nömrəli Qərarla "Obyektin Tikintisinə İcazə"nin və "Tikintiyə icazə barədə Xüsusi Nişan"ın forma və məzmununun təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 23 dekabr tarixli 119 nömrəli Qərarında dəyişikliklər edilmişdir.

Bundan başqa, "Naxçıvan Muxtar Respublikasında özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın təsdiq edilməsi haqqında" Qərar qəbul edilmişdir. Bu Qərara əsasən özünüməşğulluğa cəlb olunmuş şəxsə verilmiş əmlak geri alındıqda və bu əmlakın digər özünüməşğulluğa cəlb olunmuş şəxsə verilməsi mümkün olmadıqda həmin əmlakın açıq hərraclarda satılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 oktyabr tarixli 84 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 sentyabr tarixli 116 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" təsdiq edilmişdir. Həmin qaydaya əsasən qəbiristanlığın salınması üçün torpaq sahəsi torpaq münasibətlərinin tənzimlənməsi sahəsində müvafiq normativ-hüquqi aktlara əsasən yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədlərinin tələblərinə uyğun olaraq ayrılır. Qəbiristanlığın ümumi ərazisinin 80 faizi qəbir yerləri, ən azı 15 faizi yaşıllıq sahəsinin salınması, qalan hissəsi isə dəfn və yas mərasimlərinin keçirilməsi, habelə qəbiristanlığın qorunması və saxlanılması işlərinin təşkili məqsədilə bina və digər obyektlərin tikintisi, qəbiristanlıq yollarının və rezervasiya nəqliyyat vasitələri üçün meydançanın salınması məqsədi ilə nəzərdə tutulur.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Xüsusi təyinatlı tədris müəssisəsində ilk dərs ilinə başlanılıb



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni oxunduqdan sonra Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov yeni dərs ilinin və məktəbdə ilk dərs gününün başlanması münasibətilə kollektivi Naxçıvan Muxtar Respublikası Ali Məclisi və nazirliyin şəxsi heyəti adından təbrik edib.

Bildirilib ki, Ali Məclis Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılan məktəb muxtar respublikada yeni təhsil müəssisəsi olmaqla daxili işlər orqanlarının ixtisaslı kadrlarla təminatına töhfəsini verəcək. Hazırda məktəb üçün müasir tələblərə cavab verən kompleksin inşa olunduğunu diqqətə çatdıran nazir bildirib ki, kompleks tədrisin yüksək səviyyədə təşkilinə imkan verəcək.

Kursantların yaradılan şəraitdən səmərəli istifadə etmələrinin vacibliyini vurğulayan Fazil Ələkbərov deyib ki, Orta İxtisas Polis Məktəbinə qəbul üçün 150 nəfər müraciət edib. Onların 105-i imtahanlara buraxılıb, 25 nəfər məktəbdə oxumaq imkanı qazanıb. Tədris müddəti 2 il olan məktəbi bitirdikdən sonra məzunlara polis kiçik leytenantı rütbəsi veriləcək, onlar muxtar respublikanın daxili işlər orqanlarında zabit kimi xidmətə başlayacaqlar.

Nazir Ali Məclisin Sədrinə yaradılmış şəraitə görə kollektiv adından minnətdarlığını ifadə edib. Əminliyini bildirib ki, məktəb qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirəcək, yaradılan şəraitə əməli işi ilə cavab verəcək.

Kursantlar adından çıxış edən Tural Səfərli onlara göstərilən diqqət və qayğı, yaradılan şərait müqabilində yaxşı təhsil alacaqlarını, fəaliyyət göstərəcəkləri dövrdə nümunəvi xidmət edəcəklərini bildirib.

Sonra Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində kursantların andiçmə mərasimi keçirilib, onlar polis andını qəbul etdikdən sonra muzeyin eksponatları ilə yaxından tanış olublar.

**Muxtar MƏMMƏDOV**

## Özbəkistan Respublikasında Naxçıvan təcrübəsindən istifadə olunacaq



*Özbəkistan Respublikasının Mənzil Kommunal Təsərrüfatı və Səhiyyə nazirliklərindən və Dövlət Ekologiya Komitəsindən olan nümayəndələr muxtar respublikanın içməli su və kanalizasiya sistemlərinin qurulması layihəsi ilə tanış olmaq, bu sahədə qazanılan təcrübəni öyrənmək məqsədilə Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.*

Səfər çərçivəsində əvvəlcə qonaqlar Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində olublar, burada görüş keçirilib.

Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi ilə tanış olan nümayəndə heyətinə məlumat verilib ki, kanalizasiya sularının təmizlənməsi üçün Araz çayının kənarında tikilən bu kompleks 2018-ci il may ayının 16-da istismara verilib. Təmizləyici qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompleksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Qurğu gün ərzində 32 min kubmetr və ya saniyədə 370 litr çirkab su təmizləmə gücünə malikdir. Membrandan çıxan təmiz su ilə suvarma mövsümündə öz axını ilə 170, nasoslar vasitəsilə 330 hektar sahəni suvarma suyu ilə təmin etmək olur.

Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksində qonaqlara bildirilib ki, bu kompleks 2014-cü il aprel ayının 7-də istifadəyə verilib. Nanofiltrli membran tipli sutəmizləyici qurğu əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır. Kompleksdə suyun təmizlənməsi üçün ən müasir qurğu və avadanlıqlardan istifadə olunur. Suya xüsusi qurğu vasitəsilə havadan alınan ozon vurulur. Qurğunun gücü gün ərzində 40 min 800 kubmetr və ya saniyədə 472 litrdir. Suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlığına inzibati binada quraşdırılmış kompüterlə nəzarət olunur.

Nümayəndə heyəti Naxçıvançay yatağında tikilən kaptaja da baxıb. Məlumat verilib ki, kaptajın məhsuldarlığı orta hesabla saniyədə 472 litr, uzunluğu 2,9 kilometr, dərinliyi isə 6 metrdir, kaptajın üzərində 52 ədəd baxış quyusu və bir ədəd suqəbuledici kamera quraşdırılıb. Kaptajdan təmizləyici qurğuya qədər 6,4 kilometr özüaxınlı şüşəlifli magistral boru xətti çəkilib, ətraf 3,3 kilometr uzunluğunda dəmir məhəccərlə hasarlanıb, kaptajın sel sularından qorunması üçün 1,5 kilometr uzunluğunda qoruyucu bənd tikilib.

Daha sonra qonaqlar Şahbuz Şəhər Təmizləyici Qurğular Kompleksində olublar. Qeyd edilib ki, burada tikinti işlərini "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyəti və Almaniyanın "Bioworks" şirkəti həyata keçirib. Təmizləyici qurğular sistemi gün ərzində 2800 kubmetr çirkab su təmizləmək gücünə malikdir. Sistemin hovuzlarının tutumu 7200 kubmetrdir. Təmizləyici qurğuya daxil olan su əvvəlcə fiziki təmizlənir və 1 millimetrdən böyük olan tullantılar kənarlaşdırılır. Sonra su bioloji təmizləmədən keçirilir. Bu zaman hovuzlara oksigen vurulur və lil çökdürülür. Həmin su mexaniki filtrlərdə 10 mikrona qədər təmizlənir və təsərrüfat suyu kimi Naxçıvançaya axıdılır.

Şahbuz Şəhər Su Təmizləyici Qurğular Kompleksinin iş prinsipi ilə yaxından maraqlanan nümayəndə heyətinə bildirilib ki, 2017-ci il yanvarın 11-də istismara verilən sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edə biləcək. Qurğu gün ərzində 6 min 600 kubmetr və ya saniyədə 76 litr su təmizləmə gücünə malikdir. Burada hər birinin tutumu 2500 kubmetr olan iki təmiz su anbarı inşa olunub. Bu anbarlardan təmizlənmiş su öz axını ilə əhaliyə fasiləsiz olaraq verilir. Layihənin həyata keçirilməsi nəticəsində Şahbuz şəhəri, Kiçikoba və Daylaqlı kəndlərində 15 min 300 nəfər 24 saat daimi su ilə təmin edilir. Əhaliyə verilən su Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir.



"Comfort Engineering Group"un baş direktoru, nümayəndə heyətinin rəhbəri Muratxon Gurayev Kərimoviç "Şərq qapısı" qəzetinə müsahibəsində səfərlərinin məqsədi və mahiyyəti barədə danışıb:

– Naxçıvana səfərimizin məqsədi burada həyata keçirilən, beynəlxalq standartlara cavab verən su təchizatı və kanalizasiya sistemləri layihəsi ilə yaxından tanış olub bu sahədə əldə olunan təcrübəni öyrənməkdir. İstəyirik ki, Özbəkistan Respublikasında da Naxçıvanda istifadə olunan Almaniyanın "Bioworks" şirkətinin texnologiyalarını tətbiq edək. Bunun üçün də əvvəlcə həmin şirkətin Azərbaycan üzrə nümayəndələri ilə əlaqə saxladıq. Səfərin baş tutması üçün apardığımız danışıqlar öz müsbət nəticəsini verdi və biz Naxçıvana gələ bildik. Yeri gəlmişkən, Naxçıvan Muxtar Respublikasında xüsusi qonaqpərvərliklə qarşılandığımız üçün minnətdarlıq edirəm. Qısa zaman çərçivəsində buradakı ayrı-ayrı ərazilərdə fəaliyyət göstərən sutəmizləyici texnologiyalarla tanış olduq, peşəkar mütəxəssislərin rəyləri bizim üçün böyük önəm daşıdı.

Əminliklə demək istəyirəm ki, nümayəndə heyətimizdə Naxçıvan təcrübəsi barədə yüksək fikirlər formalaşdı. Düşünürəm ki, Naxçıvan Muxtar Respublikasında öyrəndiklərimiz gələcək fəaliyyətimizdə böyük rol oynayacaq.

**Nail ƏSGƏROV**

## Bilik Günü qeyd edilib



Naxçıvan Dövlət Universitetində 15 sentyabr – Bilik Günü qeyd olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müəllim və tələbələri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. Təhsil siyasətinin Azərbaycanda, o cümlədən muxtar respublikada uğurla həyata keçirildiyini vurğulayan rektor tədris prosesinin kredit sistemi əsasında təşkilinin ümumi müddəaları, əsas səciyyəvi xüsusiyyətləri, sənədləşmə, qiymətləndirmə prinsipləri, tələbə və müəllimlərin mobilliyinin təmin olunması və digər məsələlər barədə danışıb. O bildirib ki, bu il bakalavr üzrə 1029, magistratura üzrə isə 139 tələbə universitetə qəbul olub.

Tədbirdə yüksək bal toplamış tələbələrin valideynləri adından Ruhəngiz Əsgərova tələbələri təbrik edib, onlara yeni-yeni uğurlar arzulayıb.

Birinci kurs tələbələri adından 651 balla universitetin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasına qəbul olmuş Səmanə İmanova çıxışında ölkədə təhsilə yaradılan yüksək şəraitə, hərtərəfli dövlət qayğısına görə minnətdarlıq edib.

Sonra yüksək balla universitetə qəbul olanlara tələbə bileti və "Naxçıvan Ensiklopediyası" kitabı təqdim olunub.

Sonda universitetin tanıtım filmi nümayiş etdirilib.

**Səadət ƏLİYEVA**

* * *



*"Naxçıvan" Universitetində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

Tədbiri universitetin rektoru, professor İsmayıl Əliyev giriş sözü ilə açaraq müəllim və tələbələrin yeni tədris ilini təbrik edib, uğurlar arzulayıb. Rektor Azərbaycanda təhsilin inkişaf strategiyasından, ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin muxtar respublikada da uğurla davam etdirilməsindən danışıb.

Vurğulanıb ki, bu gün ali məktəbin beynəlxalq əlaqələri də genişləndirilib, universitetin əməkdaşlıq etdiyi ali təhsil ocaqlarının sayı 51-ə çatıb.

Pedaqoji fakültənin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva çıxışında bildirib ki, "Naxçıvan" Universiteti yüksəkixtisaslı mütəxəssislər yetişdirən, güclü maddi-texniki bazaya malik, beynəlxalq əlaqələrini günbəgün genişləndirən ali təhsil ocağıdır. 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 10 kafedra, 6 şöbə var. 2019-2020-ci tədris ilində universitetdə 1200-dən çox tələbə təhsil alacaq. Bu tədris ilində 14 ixtisas üzrə mütəxəssis hazırlığı aparılacaqdır. Universitetdə təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

Ali təhsil ocağının Tələbə-Gənclər Təşkilatının sədri Zakir Məmmədov çıxışında muxtar respublikamızda təhsilin inkişafına göstərilən qayğıdan danışıb.

Tələbələr adından İngilis dili müəllimliyi ixtisası üzrə I kurs tələbəsi İnci Allahverdili çıxışında ali təhsil ocağında yaradılan mükəmməl şəraitin onların yüksək səviyyədə təhsil almalarına xidmət etdiyini vurğulayıb.

Daha sonra çıxış edən valideynlər universitetdə yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonda yüksək balla universitetə daxil olanlara tələbə biletləri təqdim edilib.

**Seyfur HACIMURADOV**

## Ali təhsil ocağında tədbir



Naxçıvan Müəllimlər İnstitutunda Bilik Günü qeyd olunub. Yeni dərs ili münasibətilə institutun rektoru, dosent Elbrus İsayev çıxış edərək yeni qəbul olmuş tələbələri və valideynləri təbrik edib. O bildirib ki, bu tədris ilində institutda əlavə olaraq 3 yeni ixtisasa qəbul aparılıb. Bunlar İngilis dili müəllimliyi, Tarix müəllimliyi və Psixologiya ixtisaslarıdır. Ümumi olaraq bu il instituta 11 ixtisasda bakalavr üzrə 327, magistratura səviyyəsi üzrə isə 22 tələbə qeydiyyatdan keçib. 13 nəfər əcnəbi tələbə Naxçıvan Müəllimlər İnstitutunda təhsil alacaqdır.

İnstitutun prorektoru Azad Novruzov, Pedaqoji fakültənin dekanı Arif Ağalarov, Təbiət və incəsənət fakültəsinin dekanı Rövşən Vəliyev tələbələri təbrik ediblər. Çıxışlarda vurğulanıb ki, bu ali təhsil ocağında mövcud olan zəngin maddi-texniki baza, yüksəkixtisaslı pedaqoji heyət tələbələrin mükəmməl ali təhsil alması üçün əsaslı zəmin yaradıb.

Yeni qəbul olmuş tələbələrin valideynləri də çıxış edərək övladlarının Naxçıvan Müəllimlər İnstitutunda təhsil alacaqlarından fəxr hissi keçirdiklərini bildiriblər.

Sonda yüksək balla instituta daxil olmuş tələbələrə tələbə bileti və qiymət kitabçaları təqdim edilib.

**Xəbərlər şöbəsi**

*Milli dəyərlərimizi qoruyaq və yaşadaq*

# Qədim türk mərasimləri ilə bağlı olan yallılarımız

***Yallılar ətrafdakı insanlara gözəl əhval-ruhiyyə aşılayan böyük dəyər daşıyıcılarıdır. Ümumiyyətlə, rəqslər qədimdən müxtəlif məqsədlərlə ifa edilib. Bəzi rəqslərin isə müxtəlif ayin və rituallara məxsus elementlər daşıdığının şahidi oluruq. Alovu qorumaq, yeli çağırmaq və küləyi yatırtmaq məqsədilə oynanılan və inanclarla zəngin olan bəzi yallı növləri bu baxımdan diqqət çəkməkdədir. Bunlardan bir neçəsinin ifasına diqqət edək: Meydanda çuxur qazılır, üstü örtülür. Çuxurun sağından və solundan, yerin altından bəzi yerlər müəyyən olunur, lağımlar atılır. Çuxurda beş ocaq qalanır. Sağda və solda hər birində 10 nəfər olmaq şərti ilə yallı gedilir. Yallı qrupunun üzvləri əllərində taxtadan düzəldilmiş yelpiklə lağımların yanından keçərkən qalanmış ocaqdan qalxan alovu yelləyirlər – bir dəfə sağdan, bir dəfə soldan. Sağ tərəfdəkilər atəşi yelpiklə yelləərkən soldakılar pantomim hərəkətlərlə rəqiblərinə işarə edərək oxuyurlar:***

*Odu at, odu tut,*
*Odu tut, odu at.*

Sol tərəfdəkilər alovu yelpiklə yelləyərkən sağ tərəfdəkilər yallı gedərək oxuyurlar:

*Odu sal, odu al,*
*Odu al, atəşi sal.*

Yağışlı, soyuq, fırtınalı havalarda belə qruplar tez-tez yer dəyişdirir, atəşi alovlandırır, atəşin sönməsinə izin vermir və onu qoruyurlar. Ocağın çevrəsində rəqslər uzun müddət fasiləsiz davam edir. Göründüyü kimi, burada rəqs özəllikləri ilə yanaşı, oyun ünsürləri də özünə yer alıb. Oyun ünsürlərinin vəhdətindən yaranan bu yallıda yerə, göyə, oda, suya, küləyə, günəşə xitabən çağırışlar qədim türk mədəniyyəti ilə bağlı olan yallının daha erkən dönəmlərə söykəndiyini təsdiqləyir.



Naxçıvan ərazisində yayılmış yallılar müxtəlif adlarla bilinir və onların hər birinin adı hər hansı olmuş hadisə, rəvayət və əfsanələrlə əlaqəlidir. Məsələn, "Üçpəncə", "Turacı" və sair kimi yallıların adları bəzi əfsanə və rəvayətlərdən götürülüb. "Üçpəncə" yallısının meydana gəldiyi rəvayətə diqqət edək: Qədim zamanlarda bir kəndli meşədə odun yığarkən bir ayının pəncəsinin üç barmağı üzərində gəzdiyini görür. Ayının pəncəsinin dördüncü barmağı yaralı olduğu üçün ayağını qaldıraraq hərəkət etməyə başlayır. Bu hərəkət rəqsi xatırladır. Kəndli gördüyü hərəkətlərin təsiri ilə "Üçpəncə" yallısını "kəşf edir". Şərur rayonunun kəndlərində də "Üçpəncə" yallısı geniş yayılıb. Yaşlı nəslin nümayəndələri tərəfindən oynanılan rəqs ağır və sürətli tərzdə icra olunur.

Onu da qeyd etməliyik ki, Naxçıvanda yallılar el şənlikləri ilə yanaşı, müxtəlif mərasimlərdə də ifa edilir. Novruz bayramı zamanı Ordubad rayonunda "Xanbəzəmə" mərasimi təşkil olunur. Bu mərasimdə yallı rəqsinin icrası mütləqdir. Belə ki, burada müxtəlif yallı növləri ifa olunur, onlardan biri də yaşlı nəslin "İlanvarı" adlandırdığı yallı növüdür. "İlanvarı" yallısında bəzi oyun elementləri görünməkdədir. Oyundakı bu xüsusiyyətlərə diqqət edək: Yeddi-səkkiz gəncdən ibarət iki sıra düzülür. Hər sıradakı insanlar qollarını bir-birinin çiyinlərinə keçirərək yallıya başlayırlar. Hər qrupun başında yallıbaşı durur. O, əlində çubuq saxlayaraq oyun zamanı sıranın pozanları cəzalandırır. Bu çubuğa "vən" deyilir (Vən – qabığı ağ, sərt meşə ağacıdır). Beləcə oyun başlanır. 1-ci yallı qrupu əyilərək 2-ci yallı qrupunun hər hansı bir üzvü ilə digər üzvünün arasından keçməyə çalışır. Keçərkən qrup üzvlərinin cibinə əl ataraq pul və ya cibdə olan hər hansı bir əşyanı götürməyə çalışırlar. Sonda "oğurlanan" əşyalar ortaya qoyulur. Kimin daha bahalı əşya götürdüyü müəyyən olunur. Əşyanı götürən əşya sahibindən "Qənimo" yallısının təkbaşına ifasını tələb edir. Bu tələb yerinə yetirildikdən sonra əşya sahibinə qaytarılır, əks halda əşya ərazidə yaşayan kasıb və ehtiyacı olan kimsəyə bağışlanır. Bunlar ətrafda oyunu seyr edən tamaşaçıların gözü qarşısında icra olunur. Onu da qeyd edək ki, bu yallı kişilər tərəfindən ifa edilir. Qadınlar isə oyunu müşahidə edərək nəticənin necə olacağını izləyir, hansı yallı qrupunun qələbə çalacağını öz aralarında müzakirə edirlər.

Digər yallıya diqqət etsək, görərik ki, bu yallı növü də oyun ünsürləri ilə cilalanıb: Yenə 7-8 nəfərlik 2 qrup təşkil olunur. Qruplar bir-birilə pantomim hərəkətlərlə deyişirlər. Birinci qrupun 1-ci oyunçusu cibindən dəsmal çıxarır. Mütləq o biri qrupdan da qarşılıq olaraq dəsmal göstərilməlidir. 2-ci oyunçu, məsələn, cibindən telefon çıxararsa, o biri qrup da telefon çıxararaq qarşılıq verməlidir. Beləcə oyuna müxtəlif əşyalar əlavə olunur. Nəticədə, cibindən qarşılıq əşya çıxarmayan qrup məğlub sayılır. Bu yallıdakı hərəkətlərə, əyilib əl-ələ tutaraq rəqsetmə növünə Türkiyənin Qars vilayətində ifa olunan "Toyuqbarı" adlı yallıda da rast gəlinir. Həm də yallıda bu hərəkətlər, yəni qrup üzvlərinin əyilərək o biri qrup üzvlərinin arasından keçməsi Şumer gil lövhələr üzərinə də həkk edilib. Belə ki, tarixi eradan əvvəl 3000 ilə dayanan həmin lövhə Nineviyada tapılıb. Buradakı halay rəqsinin eyni hərəkətlərinin müasir dövrümüzdə Qars və Qars ətrafında icra edilən "Timur ağa" halay rəqsinin hərəkətləri ilə eyni olduğunu görürük.



Qədim türklərin yallıları haqqında Türkiyənin tarixçi-etnoqrafı Kazım Mirşam və müasir dövrümüzdə fəaliyyət göstərən etnoqraf Haluk Tarcan geniş bilgilər veriblər. Bu gün Azərbaycanın müxtəlif bölgələrində – Lənkəranda, Biləsuvarda Şahsevənlərin ifa etdikləri yallılar hələ də yaşadılır. Ordubad rayonunun Kələki kəndinin adı ilə bağlı 11 Kələki yallısı kimi Savə aşıqları tərəfindən icra edilir. M.H.Vəliyev söyləyir ki, Şahsevənlər oğuzların ayrım tayfalarıdır. Bəzi mənbələrdə Şahsevənlərin Səfəvilər dövründən olduqları söylənilir. Şahbuz rayonunun Qışlaq, Ordubad rayonunun Ağrı kəndlərində bu tayfanın yaşadığı haqqında məlumat var. 1590-cı ilin məlumatına əsasən "İrəvan əyalətinin icmal dəftəri" kitabında bu tayfanın həmin kəndlərdə yaşadığı göstərilir.

Yallının etimologiyası haqqında elmi ədəbiyyatda müxtəlif mülahizələr vardır. Mirəli Seyidova görə, yallı "al", "uca", "qadir", "qüdrətli" sözlərindən yaranıb. "Qırmızı", "al-qırmızı", "al" sözləri Azərbaycan dilində alov, od-alov tərkibini ifadə edir. Alim bu sözün ilkin variantının "yal" olduğu qənaətinə gəlir. "Yallı" sözünün də əsası yal+od, yal+lı alov+lu, od+lu, günəş+li deməkdir. Ehtimal ki, qədim azərbaycanlılar odun, alovun şərəfinə həmin rəqsdən istifadə ediblər.

Belə ehtimal etmək olar ki, məşəl ətrafında dövrə vuran insanların mərasim prosesinə köklədiyi məqamlarda yallı meydana gəlib. Başqa bir izaha görə, alov ətrafında dövrə vurub əl-qol hərəkətləri edən insanlar qırıq-qırıq səsləri də tələffüz edirdilər. Həmin səslər get-gedə hecalara, sonradan da sözlərə çevrildi. "Yallı" sözünün də məhz belə meydana gəldiyini güman edirik. Məsələn, yal, yal-la, yol-lu, yel-li. Bu fikirlər professor Füzuli Bayata məxsusdur.

Füzuli Bayata görə, ilk formasının alay və ya allı (buradan da halay və ya yallı) olduğu bilinən bu oyunun ən qədim qayaüstü təsvirinə Qobustanda rast gəlirik. Altayda, Baykal gölündə mərasim oyunlarını əks etdirən təsvirlər də, çox güman ki, halay və ya yallı oyunu ilə bağlıdır. Çünki bu təsvirlərdəki oynayanların düzülüşü, əl-ələ və ya qol-qola oynamaları, yarımdairə şəklində durmaları onu halayla, yallı ilə əlaqələndirməyə əsas verir. Ancaq qeyd olunmalıdır ki, alay həm də türk ordu strukturunda döyüşçü dəstəsinə verilən addır. Kişilərin oynadığı halay da qədim türklərin savaş sənətini, döyüş taktikasını əks etdirir. Burada oyunun şeir, fəlsəfə, mərasimlər, xalq təbabəti və nəhayət, hərb sənəti ilə bağlılığını da xatırlatmaq yerinə düşər. Qeyd edək ki, bir halay adam, çoxlu insan mənasında işlədilir. O halda halayın – yallının fəlsəfəsində türklərin musiqili, rəqsli döyüş məşqini əks etdirən ayin – oyun olduğu qənaətinə gəlmək olar. Belə ki, yalnız kişilərin oynadığı cəngi rəqsi, əsasən, kişilərin oynadığı çovqan, gökbörü, cirit oyunları da, əslində, bir savaş, savaşa hazırolma oyunudur. Qobustandakı qavaldaş da mahnılı rəqsin oynanılması üçün nəzərdə tutulub. Halayın məzmununun dəyişməsinə baxmayaraq, quruluşunda qədimlik qorunub. Belə ki, halayda xorla mahnı oxumaq, rəqs etmək və ritmi əl çalmaqla və yırğalanmaqla tutmaq hələ də qalmaqdadır.

Bir çox növü müxtəlif inanc və etiqadlarla bağlı olan yallılar müasir dövrümüzdə ritmik rəqs sistemini zənginləşdirən oyun elementləri ilə əhatələnərək rəqs ifaçılığında yaşayır. Yuxarıda da qeyd etdiyimiz kimi, bu kütləvi rəqslər bir tərəfdən də qədim türklərin mərasim oyunları olub. Həmin oyunlar müxtəlif dövrlərdə fərqli adlar daşıyıb və daha çox məlum olanı, tabii ki, kökləri eradan əvvəlki dövrlərə qədər gedib çıxan yallılardır.

Qeyd edək ki, qədim köklərə malik milli musiqi tariximizdə özünəməxsus yeri olan yallı sənətinin doğma diyarımızda yaşadılması və təbliği istiqamətində əhəmiyyətli işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərur yallıları haqqında" 2018-ci il 24 dekabr tarixli Sərəncamı muxtar diyarımızda yallı sənətinin tədqiqi, təbliği və qorunmasına göstərilən dövlət qayğısının bariz təzahürüdür.

Həmin sərəncamın icrası ilə əlaqədar, eləcə də Milli Musiqi Günü münasibətilə ötən şənbə günü Saat Meydanı turistik istirahət mərkəzində təşkil olunmuş "Yallı" festivalı özünəməxsusluğu ilə fərqləndi.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin yüksək təşkilatçılığı ilə keçirilən festival müxtəlif yallı kollektivlərinin maraqlı və rəngarəng çıxışları ilə yadda qaldı. Festival boyu "Tənzərə", "Xələfi", "Köçəri", "Baharı", "El yallısı", "Hoynəri", "Üç ayaq", "Tirməşal", "Qənimo", "Söylə", "Tello" kimi yallı və digər rəqslərin mükəmməl ifası bundan sonra da bu çoxəsrlik xalq sənətinin qorunub yaşadılacağına, layiqli təbliğinə zəmanət verir.

**Aytən CƏFƏROVA**
*filologiya üzrə fəlsəfə doktoru*

## Gənclər Mərakeş Krallığında səfərdə olublar

2-12 sentyabr tarixlərdə Azərbaycan-Mərakeş gənclər mübadiləsi proqramı çərçivəsində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə ölkəmizin ictimai fəal gənclərindən ibarət 12 nəfərlik nümayəndə heyəti Mərakeş Krallığında səfərdə olub.



Nümayəndə heyətinə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov rəhbərlik edib. Azərbaycan və Mərakeş Krallığı gəncləri arasında əməkdaşlığın gücləndirilməsi, eləcə də mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi məqsədilə həyata keçirilən səfər zamanı nümayəndə heyəti ölkənin Kasablanka, Rabat, Mərakeş, Essouria, Ağadir şəhərlərində olub. Gənclər Mərakeş Krallığının dövlət rəsmiləri, Gənclər və İdman Nazirliyi ilə görüşlər keçirib, iki ölkə gəncləri arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Səfər çərçivəsində Mərakeş Krallığının tarixi abidələrinə ziyarətlər təşkil edilib, mərakeşli gənclərlə görüşlər keçirilib, krallığın bir sıra şəhərlərindəki "Gənclər evləri" və mövcud idman obyektləri ilə tanışlıq olub. Nümayəndə heyəti səfər zamanı ölkəmizin gənclər siyasəti, təhsil sistemi və xüsusilə respublikamızın dinamik inkişafı haqqında Mərakeş Krallığının gənclərinə ətraflı məlumat veriblər.

## İdmanın kütləviliyi təmin edilir

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən avqust ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili, intellektual səviyyələrinin artırılması, dünyagörüşlərinin formalaşdırılması, onlara vətənpərvərlik hisslərinin aşılanması və idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Dövlət Texniki Kollecində, Naxçıvan Musiqi Kollecində, Naxçıvan Tibb Kollecində təhsil alan tələbələrin və idmançıların iştirakı ilə "Yay məktəbi", həmçinin 12 avqust – Beynəlxalq Gənclər Günü ilə əlaqədar gənclərin muzeylərə ekskursiyaları təşkil olunmuşdur.

Avqust ayında idman sahəsində kütləviliyin təmin olunması üçün müxtəlif idman növləri üzrə bir sıra birinciliklər və yoldaşlıq görüşləri keçirilmiş, idmançılarımızın ölkə və beynəlxalq turnirlərdə iştirakı təmin edilmişdir.

Ötən ay idmançılarımız Azərbaycan birinciliyində 3, beynəlxalq turnirdə 13 medal olmaqla, ümumilikdə, 16 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Üçgünlük təlim-toplantı başa çatıb



Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən hərbi rəhbərlərlə keçirilən 3 günlük təlim toplantısına yekun vurulub. Bununla əlaqədar keçirilən tədbirdə toplantının nəticələri, hərbi rəhbərlərin bilik və bacarıq səviyyələri müzakirə edilib.

Tədbirdə çıxış edənlər hərbi rəhbərlərin peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını bildiriblər. Çıxışlar zamanı o da vurğulanıb ki, hərbi rəhbərlər ilk olaraq özləri şagirdlərə nümunə olmalıdırlar. Çünki məktəblilərin hərbi xidmət və ordumuz barədə ilk təəssüratları məktəbin hərbi rəhbərlərinin təsiri nəticəsində formalaşır. Buna görə də hərbi rəhbərlər peşəkarlıqlarının artırılmasına ciddi yanaşmalıdırlar.

Sonda suallar cavablandırılıb.

**Nəriman NƏCƏFOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 623